UOT 94(479.24); UOT 930

SEVİNC ZEYNALOVA
Bakı Dövlət Universiteti
Qədim dünya və orta əsrlər tarixi kafedrasının baş müəllimi
sevinc_zeynalova@hotmail.com

AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNİN MİLLİ MƏNSUBİYYƏT MƏSƏLƏSİNİN RUS (SOVET) TARİXŞÜNASLIĞINDA ÖYRƏNİLMƏSİNƏ DAİR

DOI: https://doi.org/10.36719/2708-065X/110/300-304

Məqalədə Ağqoyunlu dövlətinin milli mənsubiyyəti məsələsinə rus (sovet) tarixşünaslığında mövcud yanaşma tədqiq olunur. Araşdırma göstərir ki, sovet tarixşünaslığı Ağqoyunluların türk mənşəli tayfa olduğunu qəbul etməsinə baxmayaraq, bu bağlılığı bir sıra hallarda ideoloji yanaşmalarla ya zəiflətmiş, ya da yönünü dəyişdirmişdir. Xüsusilə XX əsrin ortalarına qədər olan dövrün sovet alimlərinin əsərlərində Ağqoyunluların siyasi və mədəni tarixi milli kontekstindən çıxarılaraq, qeyri-milli kateqoriyalarda təqdim etmək cəhdləri müşahidə olunur.

Tədqiqatda rus (sovet) alimlərinin fikirləri təhlil edilərək göstərilir ki, bu tarixçilər Ağqoyunluların tarixi rolunu etiraf etsələr də, onların Azərbaycan tarixi və etnik kimliyi ilə üzvi bağlılığını ya nəzərə almamış, ya da ikincil mövqedə təqdim etmişlər. Bu yanaşmalar, əsasən sovet ideoloji doktrinasının təsiri ilə formalaşmış və imperiya daxilində milli özünüdərkin qarşısını almağa yönəlmişdir.

Açar sözlər: sovet tarixşünaslığı, Ağqoyunlu, Azərbaycan dövlətçiliyi, milli mənsubiyyət.

Giriş. Azərbaycanın orta əsrlər tarixi zəngin dövlətçilik ənənələri, hərbi-siyasi proseslər və mədəni inkişaf baxımından olduqca mühüm mərhələlərlə səciyyələnir. Bu mərhələlər arasında Ağqoyunlu dövlətinin təşəkkülü, yüksəlişi, daxili və xarici siyasətinin başlıca istiqamətlərinin ortaya çıxması xüsusi yer tutur. Həm tarixi-coğrafi mövqeyi, həm də mədəni və siyasi əlaqələri baxımından bu dövlət yalnız Azərbaycan tarixində deyil, bütövlükdə Yaxın və Orta Şərq bölgəsində mühüm rol oynamışdır.

Ağqoyunlu dövlətinin milli mənsubiyyəti, onun Azərbaycan tarixində yeri və Azərbaycan xalqının etnogenezində Ağqoyunlu tayfalarının rolu uzun illər boyunca müxtəlif tarixşünaslıq məktəblərində, xüsusən də rus (sovet) tarixşünaslığında fərqli prizmalardan araşdırılmış, bir sıra hallarda ideoloji məqsədlərə tabe etdirilmişdir.

Məlumdur ki, sovet tarixşünaslığında tarixi proseslərə yanaşma, əsasən, marksist-leninçi ideologiyanın təsiri altında formalaşmışdır. Bu ideoloji çərçivə, xüsusilə milli kimlik və dövlətçilik məsələlərinə münasibətdə obyektiv elmi analizə manea törətmişdir. XX əsrin ortalarında formalaşan və uzun müddət mövcud olan bu yanaşma, milli dövlətçilik ənənələrinin və xalq kimliyinin açıq şəkildə vurğulanmasından çox, sinfi münasibətlər və iqtisadi faktorların önə çıxarılmasına üstünlük verirdi. Nəticədə, Ağqoyunlular kimi türkdilli və Azərbaycanla tarixi bağlılığı olan tayfalar və onların qurduqları dövlətlər, sovet tarixşünaslığında ya ümumtürk, ya da ümumfars mədəni mühitin tərkib hissəsi kimi təqdim edilirdi. Bu isə Ağqoyunluların Azərbaycan tarixində oynadığı rolun kiçildilməsinə və ya təhrif edilməsinə yol açırdı.

Sovet tarixşünaslığı çərçivəsində türkdilli xalqların dövlətçilik tarixini bölmək, onların etnik və siyasi kimliyini ümumiləşdirici kateqoriyalarla əvəz etmək meyli də güclü olmuşdur. Bu, sovet milli siyasətinin "böl və hökm sür" prinsipinə uyğun gəlir və Qafqaz xalqları arasında etnik sərhədlərin qeyri-müəyyən saxlanılmasına xidmət edirdi. Ağqoyunluların Azərbaycan xalqının tarixi inkişafında tutduğu yerin inkarı da bu ideoloji siyasətin tərkib hissəsi olmuşdur.

Bu məqalədə məqsəd, Ağqoyunlu dövlətinin milli mənsubiyyət məsələsinin rus (sovet) tarixşünaslığında hansı istiqamətdə öyrənildiyini sistemli şəkildə təhlil etməkdir. Məqalədə mövcud sovet ədəbiyyatı, dövrün aparıcı tarixçilərinin fikirləri və onların ideoloji meylləri, eləcə də Ağqoyunlularla bağlı təhriflər, ideoloji təzyiqlər və elmi obyektivlikdən yayınma hallarına xüsusi diqqət yetirilməsi önəm daşıyır. Bu yanaşma vasitəsilə məqsədimiz, Ağqoyunlu dövlətinin Azərbaycan tarixindəki əhəmiyyətini və milli kimlik prizmasından necə təqdim olunduğunu obyektiv şəkildə ortaya qoymaqdır.

1920-50-ci illərdə rus (sovet) tarixşünaslığında Azərbaycan Ağqoyunlu dövlətinin tarixinin araşdırılması dərəcəsi. 1920-50-ci illər sovet tarixşünaslığında orta əsr dövlətlərinin, o cümlədən Ağqoyunlu dövlətinin tarixi marksist-leninist sinfi-sosial analiz çərçivəsində formalaşdırılmışdır. Tədqiqatlarda bu dövlət feodal dövləti olaraq öyrənilməklə yanaşı, hər hansı bir milli kimlik daşımayan, sadəcə işğalçı siyasət yürüdərək, imperiya şəkilində mövcud olan bir dövlət kimi təqdim edilmişdir.

Əslində Azərbaycan Ağqoyunlu dövlətinin etnik mənsubiyyəti, ilk baxışda mübahisə doğurmayan məsələdir: orta əsr mənbələrinin məlumatlarına əsaslanan tarixçilərin böyük əksəriyyəti, Ağqoyunlu tayfalarının Oğuz türklərinin Bayandur qolundan olduğunu qəbul edirlər (2, s.79; 5, s.17-18; 4, s.200-201). Lakin sovet tarixşünaslığında bu məsələnin araşdırılması fərqli istiqamət alaraq, Azərbaycanı Türk İslam dünyasından ayırmaq kimi siyasi məqsədə tabe etdirilmiş, Ağqoyunlu dövlətinin əsasını qoyan tayfaların etnik mənsubiyyəti ya tamamilə gözardı edilmiş, ya da İran dövləti olaraq öyrənilmişdir.

1920-ci illərin əvvəllərindən etibarən Azərbaycan tarixinin bir çox məsələsinə, o cümlədən XV-XVI əsrlər tarixinin siyasi məsələlərinə marksist baxışın formalaşması müşahidə olunmaqdadır. Bu əsərlərin içərisində konkret tədqiqatlarla yanaşı, ümumiləşdirici əsərlər üstünlük təşkil edir. Bu dövrün tarixşünaslığında Ağqoyunluların etnik mənsubiyyətinə dair müxtəlif yanaşmalar mövcud olmuşdur. V.V.Bartold, İ.P.Petruşevski kimi müəlliflərin yazmış olduqları əsərlərdə Ağqoyunlu dövləti ümumtürk və ya ümummüsəlman dünyasının bir parçası olaraq təqdim edilməmiş, Azərbaycanın bu dövr tarixi ən yaxşı halda ümum Qafqaz tarixi çərçivəsində öyrənilmişdir. Onların içərisində ilk olaraq akademik V.V.Bartoldun məqalələrini qeyd edə bilərik. V.V.Bartold Ağqoyunluları və Qaraqoyunluları əsasən türk tayfaları kimi səciyyələndirsə də, onların fəaliyyətini türk dünyası miqyasında dəyərləndirmiş, Azərbaycanla spesifik əlaqələrə geniş yer ayırmamışdır. Akademikin elmi irsini araşdırmış R.Ş.Şahbazovanın da qeyd etdiyi kimi, Ağqoyunlu dövləti İranın türk mənşəli dövləti kimi təqdim edilmişdir" və "bu cür yanaşma tərzi V.V.Bartoldun əsərlərində də nəzərə çarpır" (7, s.11).

Eyni siyasi baxışı İ.P.Petruşevskinin də əsərlərinə şamil etmək olar. Onun "XV əsrdə Azərbaycan dövlətləri" adlı məqaləsi, həmçinin "XVI-XIX əsrin əvvəllərində Azərbaycanda və Ermənistanda feodal münasibətlərinin tarixi oçerkləri" adlı əsəri bu qəbildəndir. Müəllifin geniş həcmli birinci məqaləsində Qaraqoyunlulardan sonra Ağqoyunluların yüksəlişi, Uzun Həsənin hakimiyyəti, daxili və xarici siyasət məsələləri öz əksini tapmışdır (21, s.144-213; həmçinin bax: 6). Adını qeyd etdiyimiz monoqrafiyası XV əsri əhatə etməsə də, kitabın ikinci fəslində XV əsrdə Azərbaycandakı vəziyyəti təhlil edən müəllif Ağqoyunlu məsələsinə də toxunmuş, Ağqoyunluların türkmən olduğunu yazmasına baxmayaraq, onları istilaçı adlandırmışdır. Başqa sözlə desək, bu tayfaların Azərbaycana gəlmə etnik element olduğunu vurğulamışdır (25, s.64-65).

İkinci dünya müharibəsi ərəfəsi və illərində adı çəkilən mövzu ilə bağlı tədqiqatlar geniş miqyaslı olmamış, yuxarıda da qeyd etdiyimiz kimi, daha çox İran tarixi məsələləri içərisində təqdim edilmişdir. Azərbaycan və İran tarixinə həsr edilmiş ümumiləşdirici kitablarda isə Ağqoyunlu dövrü feodal imperiyasının istilaçılıq dövrü olaraq göstərilmişdir. Bu ümumiləşdirici əsərlərdə, eləcə də konkret araşdırmalarda sovet tarix elminin tələblərinə uyğun olaraq sinfi mübarizə məsələləri üstünlük qazanmış, daha çox xalq kütlələrinin feodallara qarşı üsyanlarının tarixinə, həmçinin aqrar münasibətlərin təkamülünə diqqət ayrılmışdır (17). Bu illərdə İ.P.Petruşevskinin yazmış olduğu bəzi məqalələri də bu qəbildəndir (23-24).

1960-80-ci illərdə rus (sovet) tarixşünaslığında XV əsr Azərbaycanın etnosiyasi tarixi məsələləri. Ağqoyunlu mövzusu 1960-cı illərin əvvəllərindən etibarən sovet ortaəsrşünaslarının tədqiqatlarının əsas mövzularından birinə çevrilir. Bu, bir tərəfdən, Ağqoyunlu tarixi üzrə yazılı mənbələrin daha geniş şəkildə elmi dövriyyəyə buraxılması, digər tərəfdən, Azərbaycan və İran tarixinin konkret mərhələlərinin kompleks şəkildə araşdırılmasına ehtiyacın yaranması ilə bağlı idi. Əlbəttə, burada belə bir amili də gözdən qaçırmaq olamz ki, sovet tarix elminin özü də xeyli dəyişikliklərə uğramışdı, bu dəyişikliklər "Stalinin 1953-cü ildə vəfatından sonra Sovet İttifaqındakı siyasi təqiblərin azalması və senzuranın yumşalması ilə bağlı idi, digər tərəfdən isə sovet tarix elminin vertikal inkişafından qaynaqlanırdı" (3, s.135).

Bu mərhələnin ən önəmli tərəflərindən biri isə, heç şübhəsiz, Azərbaycan tarix elmində milli məktəblərin özülünün qoyulması, Ağqoyunlu və Səfəvi dövlətlərinin tarixinin Azərbaycan tarixçiləri tərəfindən daha geniş miqyasda öyrənilməyə başlaması idi. Bu tarixçilərin içərisində Ə.M.Şahmallyev,

O.Ə.Əfəndiyev, Y.M. Mahmudov kimi tədqiqatçıları xüsusi qeyd etməyə dəyər. Məqaləmizin mövzu çərçivəsinə daxil olmasa da, vurğulamaq istərdik ki, bu tədqiqatçıların əsərlərində, bütün qadağalara başmayaraq, XV-XVI əsrlər Azərbaycan dövlətlərinin tarixi o dövrün şərtləri daxilində, milli tarix yönündə yazılmışdır.

Bu illərdə sovet tarixşünaslığı İran və Türkiyə tarixinin də kompleks şəkildə öyrənilməsi istiqamətində intensivlik göstərməyə başlayır. İstər ümumiləşdirici, istərsə də monoqrafik tədqiqatlarda İranın orta əsrlər tarixi çərçivəsində Ağqoyunlu dövrü də əksini tapmışdır. İlk belə əsərlərdən biri 1958-ci ilə aid kollektiv nəşr olan "İran tarixi" kitabıdır; kitabın müvafiq paraqraflarında (VI fəsil) İrandakı feodal münasibətlərinə toxunan İ.P.Petruşevski Ağqoyunlu dövlətinin tarixinə də kifayət qədər yer ayırmışdır. Ağqoyunluların Oğuz türkü olduğu faktını inkar etməyən tarixçi onların XV əsrdə Diyarbəkir torpaqlarından İrana və Azərbaycana köç etdiyini yazır (26, s.236). Ağqoyunluların (eləcə də Qaraqoyunluların) Azərbaycana gəlişi tarixi tarixşünaslıqda mübahisə doğuran məsələlərdəndir. Lakin müasir tarixçilərin əksəriyyəti belə bir fikirdə yekdildirlər ki, bu tayfaların Azərbaycanda məskunlaşması daha erkən dövrdə baş vermişdir və hətta onların Anadolu ərazisində Azərbaycandan getdiyini iddia edən tarixçilər də vardır (bu barədə bax: 4, s.198-199).

Adı çəkilən əsərdə İ.P.Petruşevski əvvəlki tədqiqatlarında olduğu kimi, Ağqoyunlu dövlətini Azərbaycan dövləti olaraq təqdim etməmiş, türk mənşəli İran dövləti olaraq göstərmişdir. Bu yanaşma 1960-80-ci illərdə nəşr edilən bütün ümumiləşdirici əsərlər ücün səciyyəvidir (1, s.18-19).

1960-cı illərin ortalarından etibarən rus sovet rarixşünaslığında Ağqoyunlu tarixinin müxtəlif məsələlərinə həsr edilmiş monoqrafiyalar və dissertasiyalar yazılmağa başlanır. Onların içərisində M.A.Abidovanın tədqiqatlarını xüsusi olaraq qeyd edə bilərik. Bu əsərlərdə də, səciyyəvi olaraq, Ağqoyunlu dövləti Azərbaycan deyil, İran dövləti olaraq təqdim edilmişdir (8-9). Maraqlıdır ki, bu illərdə Ağqoyunlu dövlətinin tarixinə həsr edilmiş əsərlərin böyük əksəriyyəti erməni və ya gürcü müəllifləri tərəfindən yazılmış, bu səbəblə də obyektivlikdən uzaq olmaqla yanaşı, həm də qərəzli olmuşdur. Onların içərisində N.Q.Gelaşvilinin (15) və M.A.Abramyanın (10) namizədlik dissertasiyalarını qeyd etmək olar. Bu tədqiqatlarda Ağqoyunlu dövləti İran dövləti olaraq təqdim edilmiş, bölgə uğrunda Osmanlı dövləti ilə münasibətləri qərəzlçi bir şəkildə araşdırılmışdır. Eyni yanaşma A.D.Noviçevin monoqrafiyası üçün də səciyyəvidir (20).

Ümumilikdə, 1960-80-ci illər sovet ortaəsrşünaslığı və şərqşünaslığı əvvəlki dövrün senzurasının yumşalması ilə səciyyələnsə də, bəzi məsələlər, o cümlədən Azərbaycanı Türk İslam birliyinin bir hissəsi kimi qəbul etməməsi və Ağqoyunluların da mənşəyinə baxmayaraq İran dövləti kimi təqdim edilməsi davam etmişdir. Bu istiqamətdə istisna sadəcə Azərbaycan tarixçiləri olmuş, onların əsərlərində Ağqoyunlu dövlətinin tarixi Azərbaycanın dövlətçilik tarixinin tərkibi kimi verilmişdir.

Nəticə. Nəzərdən keçirdiyimiz biblioqrafik icmaldan gördüyümüz kimi, sovet tarixşünaslığı Ağqoyunlu dövlətinin tarixini sinfi və universalist metodlarla təqdim etmiş, milli və regional xüsusiyyətləri ikincil plana çəkmişdir. Tarixi-milli kimlik, diplomatiya və mədəni inkişaf mövzuları sovet ideoloji çərçivədə təhriflə nəql edilmişdir. Rus sovet tarixçiləri daha çox Aqqoyunlu dövlətinin sosial quruluşuna, iqtisadi münasibətlərinə, sinfi mübarizəyə və xarici siyasətinə diqqət yetirmiş, marksist-leninçi metodologiyaya əsaslanaraq bu dövlətin tarixi inkişafının kifayət qədər bütöv və daxili baxımdan məntiqli mənzərəsini qura bilməmişlər.

Nəzərdən keçirdiyimiz tədqiqatlarda Ağqoyunluların tarixinin milli, mədəni və dini aspektləri çox zaman birtərəfli və ya sadələşdirilmiş şəkildə təqdim olunmuş, tarix prosesinə formasiya nəzəriyyəsi prizmasından yanaşılmışdır. Təssüf ki, Azərbaycan Ağqoyunlu dövlətinin tarixi müasir Rusiya tarixşünaslığında da İran tarixi çərçivəsində öyrənilməyə davam edir. Azərbaycan dövlət müstəqiliyini bərpa etdikdən sonra Azərbaycan tarixçiləri tərəfindən bu yanaşma təkrar gözdən keçirilərək, milli və elmi əsaslı analizlər əsasında yenidən formalaşmış, Ağqoyunlu dövlətinin Azərbaycanın dövlətçilik tarixindəki yeri və rolu obyektiv kontekstdə təqdim edilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycan tarixi. 3 cilddə. Birinci cild. Ən qədim zamanlardan Azərbaycanın Rusiyaya ilhaqına qədər (İ.A.Hüseynov və b. redaktorluğu ilə). Bakı, 1958, 277 s.
2. Azərbaycan tarixi. 7 cilddə. (XIII-XVIII əsrlər). III cild. Bakı, "Elm", 2007, 592 s.

3. Çağlayan, Y. XX. Yüzyılda Rusya Tarih Yazımında Avrupa'nın Ortaçağ Tarihinin Dönemselleştirme Algısı // Ortaçağ Araştırmaları Dergisi, 7/1 (Haziran 2024), s.125-144. DOI: https://doi.org/10.48120/oad.1380284
4. Çağlayan, Y. & Çağlayan, E. XV əsrdə Şərqi Anadoluda Azərbaycan Türk amilinin güclənməsi (Şərəf xan Bidlisinin "Şərəfnamə" əsəri əsasında). Akademik Tarih ve Düşünce Dergisi, 2019, 6 (5), s.189-209.
5. Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi, Bakı, "Təhsil", 2005, 140 s.
6. Şahbazova R.Ş. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri İ.P.Petruşevskinin tədqiqatlarında // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2002, № 1, s.178-181.
7. Şahbazova R.Ş. Azərbaycanın orta əsrlər tarixi məsələləri V.V. Bartoldun tədqiqatlarında. T.ü.f.d. ... avtoreferatı. Bakı, 2015, 29 s.
8. Абидова М. А. Государство Аккоюнлу в Иране во второй половине XV века. Автореферат ... к.и.н. Ленинград, 1953.
9. Абидова М.А. К истории внешной политики государства Аккоюнлу // Труды САГУ им. В.И.Ленина. Всеобщая история, 1959, с.47-53.
10. Абрамян М.А. К истории внешней политики государства Ак-Коюнлу. Автореферат ... к.и.н. Баку. 1954.
11. Бартольд В.В. Исторический обзор Ирана // Сочинения. Москва, Изд-во восточной литературы, 1974, Т.VII, с.230-336.
12. Бартольд В.В. Краткий обзор истории Азербайджана // Сочинения. Москва, Изд-во восточной литературы, 1963, Т.II (I), с.775-783.
13. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира // Сочинения. Москва, Изд-во восточной литературы, 1963, Т.II (I), с.651-774.
14. Белова Н.К. Зарождение и формирование феодализма в Иране // Историография стран Востока. Москва, МГУ, 1977, с.225-248.
15. Гелашвили Н.Г. Из истории ирано-грузинских взаимоотношений (30-е гг. XVII века). Автореферат ... к.и.н. Тбилиси, 1978.
16. Иванов М. С. Очерк истории Ирана. Москва, Госполитиздат, 1952, 468 с.
17. Иванов Н.А. О типологических особенностях арабо-османского феодализма // Типы общественных отношений на Востоке в средние века. Москва, 1982, с.133-149.
18. История стран зарубежной Азии в средние века. Москва, Наука, 1971, 426 с.
19. История сран зарубежного Востока в средние века. Москва, МГУ, 1957, 371 с.
20. Новичев А.Д. История Турции. Т. 1. Ленинград, ЛГУ, 1963, 314 с.
21. Петрушевский И.П. Государства Азербайджана в XV веке // Сборник статей по истории Азербайджана. Выпуск 1. Баку, Изд-во АН Азербайджанской ССР, 1949, с.153-214.
22. Петрушевский И.П. Ислам в Иране. Ленинград, Изд-во ЛГУ, 1966 – 400 с.
23. Петрушевский И.П. К вопросу о прикреплении крестьян к земле в Иране в эпоху монгольского владычества // Вопросы истории, 1947, № 4, с.59-70
24. Петрушевский И.П. К истории сельского поселения и сельской общины в Иране в XIII-XV вв. // Ученые Записки Института Востокведения АН СССР, 1958, т.16, с.31-51.
25. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – начале XIX века. Ленинград, Изд-во ЛГУ, 1949, 380 с.
26. Пигулевская Н.В., Якубовский А.Ю., Петрушевский И.П. и др. История Ирана. Ленинград, Изд-во ЛГУ, 1958, 391 с.

СЕВИНДЖ ЗЕЙНАЛОВА

Старший преподаватель Бакинского государственного университета

О ВОПРОСЕ НАЦИОНАЛЬНОЙ ПРИНАДЛЕЖНОСТИ ГОСУДАРСТВА АК-КОЮНЛУ В РОССИЙСКОЙ (СОВЕТСКОЙ) ИСТОРИОГРАФИИ

В статье проводится научный анализ трактовки национальной принадлежности государства Ак-Коюнлу в российской (советской) историографии. Несмотря на признание тюркского происхождения Ак-Коюнлу, советские исследователи нередко интерпретировали этот факт с

идеологических позиций, стремясь либо нивелировать, либо переосмыслить их этнокультурную и государственную принадлежность. Особенно в историографических трудах первой половины XX века прослеживаются попытки представить Ак-Коюнлу вне контекста азербайджанской истории и тюркской этничности.

Анализируя взгляды ведущих советских историков, автор приходит к выводу, что, несмотря на признание политической значимости династии, её связь с этнополитическим развитием Азербайджана либо игнорировалась, либо искусственно маргинализировалась. Подобная интерпретация объясняется влиянием советской идеологической доктрины, направленной на ограничение процессов национальной самоидентификации в пределах многонационального государства.

Ключевые слова: советская историография, Ак-Коюнлу, азербайджанская государственность, национальная идентичность.

SEVINJ ZEYNALOVA
Senior lecturer at the Baku State University

ON THE NATIONAL IDENTITY OF THE AQQOYUNLU STATE IN RUSSIAN (SOVIET) HISTORIOGRAPHY

This article offers a scholarly examination of how the national identity of the Aqqoyunlu state has been interpreted in Russian (Soviet) historiography. While the Turkic origin of the Aqqoyunlu dynasty is generally acknowledged, Soviet historians often approached this issue through an ideological lens, seeking either to downplay or reinterpret their ethno-political affiliations. Notably, historiographical works from the early to mid-20th century reveal attempts to frame the Aqqoyunlu outside the Azerbaijani historical and cultural context.

Through a critical analysis of the perspectives of prominent Soviet scholars, the study argues that although the political significance of the Aqqoyunlu was recognized, their integral connection to Azerbaijani history and ethnic identity was frequently neglected or relegated to a secondary status. These interpretations are seen as products of Soviet ideological imperatives designed to suppress national self-identification within the broader framework of a multinational empire.

Keywords: Soviet historiography, Aqqoyunlu, Azerbaijani statehood, national identity.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 06 avqust 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2025-ci il.
Rəyçilər: t.e.ü.f.d. Sayad Mehtizadə, t.e.d. Qabil Əliyev.